# CENGİZ ALİOĞLU'NUN MİNİMALİST ŞİİRLERİ

**Yrd. Doç. Sebire MUZEFFERLİ***

**Öz:** Cengiz Alioğlu geçtiğimiz yüzyılın 60'lı yıllarından itibaren edebiyatımıza gelmiş, çağdaş Azerbaycan şiirinde avangard düşüncesiyle öne çıkan entelektüel şiirin temsilcilerinden biridir. Şair, eseri boyunca deneysel arayışlar yapmaktan yorulmamış, lirik metafiziği, düşüncelerini alışılmadık bir şekilde ifade etme biçimi, zengin kelime dağarcığı, melodik-akustik yapısı, beklenmedik vizyonu, cesur deneyleri, bireysel üslupu, farklı anlatım tarzı ve çağrışımsal düşüncesiyle gri edebiyattan seçilmiştir. Şair, eserinde geleneksel şiir biçimlerine yönelip halk şiirine sadık kalsa da eseri çoğunlukla modernizmin estetik ilkelerini karşılamaktadır. “Sevgi oyunları”, “Komşunun köpeyi”, "Ruhumun Geometrisi", "Atlantis", "Toros Canavarı", "Çerçeve", "Kapı" kitapları avangard çevrede yazılan yeni yüzyılın ruhunu ve düşünce biçimini açıkça yansıtıyor. Sanatsal-estetik manevralar, şiirlere başlık seçme kültürü, geometrik şekillerin soyutlanması, aliterasyon bolluğu, metaforik metamorfozlar, şiirsel zıtlıklar, gerçeküstü yürüyüşler yazarın düşünce dünyasını farklı kılan yaratıcı argümanlardır.

Sesli şiirin en güzel örneklerini yaratan Cengiz Alioğlu, eserinde minimalist şiirlere de yer vermiştir. Minimalizm, Cengiz Alioğlu'nun şiirsel egzotizmini avangard kılan jestlerden biridir. Makalede Cengiz Alioğlu'nun farklı yıllarda yazdığı minimalist şiirler seçilerek farklı bakış açılarıyla yorumlanmıştır.

**Anahtar Kelimeler:** minimalizm, avangard, Cengiz Alioğlu, şiir, perspektik

**MİNİMALİST POEMS OF CHİNGİZ ALİOGHLU**

**Abstract:** Cengiz Alioğlu is one of the representatives of intellectual poetry, which has come to our literature since the 60s of the last century and stands out with its avant-garde thought in contemporary Azerbaijani poetry. The poet was never tired of conducting experimental searches throughout his work, and was chosen from gray literature with his lyrical metaphysics, unusual way of expressing his thoughts, rich vocabulary, melodic-acoustic structure, unexpected vision, bold experiments, individual style, different narrative style and associative thought. Although the poet turns to traditional poetry forms in his work and remains loyal to folk poetry, his work mostly meets the aesthetic principles of modernism. The books "Love Games", "The Neighbor's Dog", "Geometry of My Soul", "Atlantis", "Taurus Monster", "Frame", "Door" clearly reflect the spirit and way of thinking of the new century written in the avant-garde environment. Artistic-aesthetic maneuvers, the culture of choosing titles for poems, abstraction of geometric shapes, abundance of alliteration, metaphorical metamorphoses, poetic contrasts, surreal walks are creative arguments that make the author's world of thought different.

Cengiz Alioğlu, who created the most beautiful examples of vocal poetry, also included minimalist poems in his work. Minimalism is one of the gestures that make Cengiz Alioğlu's

---

ORCID ID: 0009-0001-3337-3239
DOI: 10.31126/akrajournal.1596674
Geliş Tarihi: 05 Aralık 2024 / Kabul Tarihi: 06 Şubat 2025
*Azerbaycan Ulusal Bilimler Akademisi Nizami Genjavi Edebiyat Enstitüsü.

poetic exoticism avant-garde. In the article, minimalist poems written by Cengiz Alioğlu in different years were selected and interpreted from different perspectives.
**Key Words:** minimalism, avant-garde, Cengiz Alioğlu, poetry, perspective

## Giriş

Çingiz Əlioğlu yaradıcılığında minimalist tərzdə yazdığı şerlərə də yer vermişdir. Şair minimalist şeirlərini "Yığcamlar" adlandırır. Bu ona görədir ki, "Yığcam"ların "kökündə, məğzində cürbəcür təşbeh və bənzətmə kombinasiyalarının əllaməliyi yoxdur." (Əlioğlu, 2006: 129). Bu cür şeirlərdə poeziyanın minimum fəzasında tam azadlıq var. Bu azadlıq minimalist şeirləri "sərt qəlib məhdudiyyətlərinə tabe olan sonetlər, akroşeir, poetik tavtoloji mətnlər və eləcə də lap elə qoşma və gəraylıdan." (Əlioğlu, 2006: 130) fərqləndirir; "müxtəsər olan hər şey həqiqidir, çünki ürəkdən gəlir" (Mineralov, 2019). Həm də belə bir qədim maksima var: "fikirlər genişliyində sözlərə darısqallıq mövcud olmalıdır." (Əlioğlu, 2006: 129).

Minimalist şeirlərdə artıq ifadələrə, süni epitetlərə, "antropomorf metaforalara" qəti yer yoxdur. Təsirli bir quruluşun, yüksək ifadələrin rəddi minimalizmin əsasını yaradır. Minimalist şeirlər ənənəvi poetik ətalətdən uzaq şeirlərdir.

*Yaxşı şeir*
*Heç vaxt*
*Çox olmur*
*şeirlə*
*heç vədə*
*qarın tox olmur...* (Əlioğlu, 2003: 129).

"Minimalist şeir nöqteyi-nəzərincə bütün açıq-saçıq bağlayıcılardan ("kimi", "tək", "bənzər" və s.) gen-bol istifadə, aşmamağa çalışan sərxoşun yapışmaqçün hər şeyə əl atmaq cəhdi gülüncdür." (Əlioğlu, 2006: 131).

Belə istifadələr oxucu təsəvvürünü mümkün qədər sarsıda biləcək vasitələrdir. Bəzən tək misra belə bitkin təsəvvür yarada bilir.

*korun övladı oldu, uşaq işıq işartısı*. (Əlioğlu, 2004: 99).
*Yaxud* :
*qar üstdə çinar xəzəli*
*bir sürü qar izləri...* (Əlioğlu, 2004: 99).

Tamın bir hissəsi kimi səslənən mini-misralarda böyük məna lakonizmə sıxlaşdırılıb. Minimalist poeziyanın lakonikliyi onu aforizmin imitasiyasına yaxınlaşdırır. Basyönün fikrinə görə, əşya və hadisələrin ilk öncə "daxili gözəlliyini" və ya "ruhunu" ürəkdən duyub, sonra sadə sözlərlə ifadə etmək

gərəkdir."(Əlioğlu, 2006: 133). Minimalizm daha çox ümumi kontekstə diqqət yetirir. Milli ədəbiyyatda da bu janr, yəni az sözlə çox fikir ifadə etmək texnikası bizim şairlərin yaradıcılıqlarında da istifadə olunub. Məsələn, Çingiz Əlioğlunun fikrincə, Fikrət Qocanın "Gecə yaman uzundur" misrası bütöv poemanı əvəz edə biləcək mono misra səslənir.

**Çingiz Əlioğlunun Minimal Şeirlərində Avanqard Ruh**

Qərb modern anlayışı kimi xarakterizə olunan, monoşeir, təkmisra kimi bünövrə daşlarından hörülmüş minimalist şeirlər Çingiz Əlioğlu poeziyasında özünəməxsus yer tutur. Şairin "Çərçivə", "Qapı", Avand", "Qonşunun iti", "Ruhumun həndəsəsi" kitabları minimalist şeirlər toplusudur.

*Həyat bir şahmatsa qismət matımdır*
*Mən məğlub olanda əslim oluram.*
*Hər günüm sabaha ultimatumdur,*
*Hər sabah dünənə təslim oluram...* (Əlioğlu, 2015: 200).

***

*Mən səni ən gözəl sözdən toxudum*
*Üzbəüz gələndə eh qoca hərif*
*Çaşdırıb hərfini yanlış oxudum.* (Əlioğlu, 2015: 356).

Minimalist tərzdə yazılan, az sözdən dünyanı, yaşamı, həyatı ifadə edən misralarda binar ziddiyyətlər, insanın özünüdərki, yaşam kadrosu verbalizə edilib.

Minimalist şeirlər "yığcam maksim"lərlə dünyanı, həyatı, yaşamı metafizik və "fizik" (real) seyri, fərdin ətraf aləmdə itib-batmayan, batmaq istəməyən ruhunu ifadə edir (Əlişanoğlu, 2024: 98).

Bu sətirlərin alt qatında şair həyat fəlsəfəsilə yaşayır. Bu şeirlər "tək bir misra – və eyni zamanda tamhüquqlu bitkin bir nəzm nümunəsi..." (V.Y. Bryusov) kimi qiymətlidir. Çingiz Əlioğlunun minimalist şeirlərində avanqard qəhrəmana xas aqressiya görünür. Bu aqresiyya yarımçıq qalmış arzularla, cəmiyyətin sosial problemlərilə "qidalanır", böyüyür. Bu aqresiyanın, üsyanın mərkəz nöqtəsini tapmaq elə də çətin deyil. Bədii ədəbiyyatın predmeti nə olursa olsun, birbaşa və ya dolayısı yolla insana bağlıdır.

Minimalist şeirlər də "Şərq dünyaduyumuna – təbii uyarlıqla bütün canlı və cansızların birləşdiyi, əlaqədə olduğu bir hissənin insan təşkil etdiyi aləmə" (Əlioğlu, 2006: 133)üz tutur. Çünki "hər bir təsvir obyekti öz ideya-bədii başlanğıcını insanın ona fəlsəfi baxışından götürür, estetik münasibətə nəzərən mahiyyət qazanır." (Vahid, 2019).

Çingiz Əlioğlunun da minimalist şeirləri səsini dünyaya duyurmaq istəyən,

cəmiyyətdən, həyatdan, gördüklərindən şikayətçi fərdlərin iç səsləridir. Çingiz Əlioğlunun "yığcamlar"ı insan xislətini açmaq üçün mükəmməl vasitədir. Minimalist şeir - az və öz olmağın ünvanıdır.

*İstər gözünü göyə*
*İstəyirsən yerə dik,*
*Yenə mömin deyilsən*
*Yeretiksən, yeretik.* (Əlioğlu, 2003: 375).

***

*Bu dünyada hər adam*
*Bir şey ilə baş qatır.*
*Qata-qata qatıra*
*Dönür adamlar baxır.*
*Qatır olanda nolar,*
*Azacıq fərqləri var:*
*Xırdaları adidir*
*İriləri baş qatır.* (Əlioğlu, 2003: 376).

***

*Allah da qocadır sevin qocanı*
*yetimin istəyi huşundan çıxır*
*varlının gur yanan ocaq tüstüsü*
*kasıbın təpəsi tuşundan çıxır.* (Əlioğlu, 2003: 134).

Minimalist şeirlərdə "zaman o qədər qısadır ki, təsvir yox, adlandırma vacibdir. Qalan hər şey oxucunun təsəvvüründən, xəyal gücündən asılıdır". (Vahid, 2020: 101)

*Yenə də sənsizəm...və s., və ilaxır...*
*Saat axır, həftə axır, il axır...* (Əlioğlu, 2010: 222).

***

*dəniz*
*bu dəniz*
*təmiz olmur heç vaxt*
*çirklidir təmiz...* (Əlioğlu, 2010: 222).

Çingiz Əlioğlu "Fraqmentlər" ( esselər, düşüncələr, müsahibələr) adlı kitabında "Minimalist şeir və yaxud Yığcamlar barədə" yazdığı məqalədə rus şairi Aleksey Andreyevin "yıxıldım-ulduzları gördüm" minimalist şeirindən istifadə etməklə minimalist şeirin eləcə də oxucu təsəvvürünün mahiyyətini açmışdır."...Aleksey Andreyevin "yarımçıq körpü effekti"ni xatırladan bir ifadəsi, zənnimizcə, bu şeir formasının tərifini dəqiq müəyyən edir: "təsəvvürü-

nüzə gətirin ki, çay kənarında gəzinirsiniz və qarşınıza tikintisi başa çatmamış körpü çıxır – bu, sadəcə dirəklər, dayaqlar dözümüdür və gedib ancaq çayın ortasına çatır. Təbii ki, belə olan halda sizin o taya əliniz yetməz – körpü hələ ki, yoxdur; di gəl siz təsəvvürünüzdə körpünü ani olaraq qura bilər və onun qarşı tərəfdə haraya dirənəcəyini, demək ki, dəqiq müəyyən edirsiniz. Müasir minimalist şeir, bax, belə işləyir." (Əlioğlu, 2006: 130).

Fikrin bu məqamında M.Baxtinin şairlə oxucunun həqiqi görüşü adlı estetik hadisəni yada salmaq gərəkdir ki, "bu görüşün umulduğu səviyyədə baş tutması hər iki tərəfin eyni mədəni, intellektual "sahəyə" malik olmasından asılıdır." (Vahid, 2020: 103). Belə ki, minimalist şeir də intellektual poeziyanın bir janrıdır. Çingiz Əlioğlu poeziyası intellektual poeziyadır.

**Çingiz Əlioğlunun Minimalist Şeirlərinin Forma- Struktru**

Çingiz Əlioğlunun minimalist şeirləri forma-struktur cəhətdən də diqqət çəkir. Şeirlərində rus ədəbiyyatından götürülmə epiqrafla oxucuya ipucu verir. Şair şeirin ruhunu oxucuya öncədən duyurmağa çalışır.

***"Yaxşılıq etmə ki, pislik görməyəsən".***
***Rus atalar sözü***
*İnsan xeyirxahlığı*
*Büllur şüşə, boş qabdır.*
*İçində acı şirə*
*Göz yaşıdır, gülabdır.* (Əlioğlu, 2010: 225).
*Və yaxud:*
***"Hərəkət yoxdur dedi, saqqallı qoca"...***
***A.S.Puşkin***
*Səndən hərəkət,*
*Məndən bərəkət,-*
*Dedi...*
*Nə bir rükət*
*Namaz qıldı,*
*Nə ürək etdi*
*Nə əlinə kitab aldı.*
*Hərəkət etdi, -*
*Qıs-qıvraq*
*Toqqasını bərkidib*
*Hərki-hərkilikdə*
*Rekete getdi...* (Əlioğlu, 2015: 22).

Bu şeirlərdə həyat xəritəsi konturlanır. Çingiz Əlioğlu poetik kontrastlarla

yaşamın alt qatını üzə çıxardır.

*Hərdən elə sandım ki,*
*Həyat adlı hörgüyə*
*Yapışmayan yad daşam*
*Demə heç vaxt yatmayan*
*Mürgüsüz bir yaddaşam...(*Əlioğlu, 2015: 52) .
*Boşalmış bədən satılır...*
*Ruhun tərk etdiyi can*
*İcarəyə verilir...* (Əlioğlu, 2015: 52).

***

*Yaxşı – pisin olması,*
*Pis – yaxşının pis olmasıdır.*
*Nəticə – dördün ikiyə nisbəti*
*Yaxşılar – təkəmseyrək*
*İsbata ehtiyac olmayan tənlik.*
*Pislərin tingliyi.*
*Tünlükdür, tünlük...* (Əlioğlu, 2015: 52).

Çingiz Əlioğlunun minimalist şeirlərini konseptual şeirlər kimi qəbul etsək görərik ki, bu şeirlərin əsas obrazı tənha insan obrazıdır. Şair mini-şeirləri ilə təhnalaşan insan bədəninin illustrasiyasını çəkir.

***Tən-ha-lıq***
*LiQqa kimi çəkir HA,*
*TƏNimi TƏN-HA-LIQ...* (Əlioğlu, 2015: 53).

İnsanın emosional vəziyyətlərindən biri olan tənhalıq sosial izolyasiya nəticəsində yaranaraq iki şəkildə - özünə qapanma və yaradıcılıqla sonlanan pozitiv tənhalıq və özünü cəmiyyətdən təcrid edən neqativ tənhalıq formalarında təzahür edir. Cəmiyyət tərəfindən anlaşılmamaq insanları tənhalığa gətirir.

"Bu baxımdan sənət adamları cəmiyyət üçün marjinallaşır, fərqlilikləri anlaşılmır, duyulmur. Bu zaman tənhalıq insanı özünə çəkilməyə, hər hansı bir şəkildə ifadə olunmaq istəyi isə sənətlə həmdəm olmağa sövq edir". (Vahid, 2020: 105)

*Tanı öz yerini*
*Şairim tanı*
*Qanmayan danır səni*
*Tanrı ki danmır*
*Tanrı tanır səni*

*Anır anında*
*Dirinə sahib duran yox*
*Ölünü anrı buraxmır*
*Tanrı dərgahında*
*Məzarın hazırdı*
*Hər an yanında...* (Əlioğlu, 2003: 52).

Mətniçi istinadlar minimalist poeziyanın xarakterik cizgilərindən biridir. Sanki şair mətn daxilində zaman maşını ilə keçmişə qayıdır, yaşanmış təcrübəni indiki zamana daşıyaraq hadisələri cari zamana uyğun yeni biçimdə qurmağa çalışır.

*"İnsan-düşünən qamışdır" –*
*Bunu Paskal deyib...*
*"Düşüncəsizlər*
*Düşünənlərə hər an qəmişdir!" –*
*Bunu da mən deyirəm*. (Əlioğlu, 2004: 152).

Minimalist şeirlər həm də "söz, ağıl oyunudu, qafiyə qaydaları haqda ev tapşırığı"dır." (Nurgül, 2015). Bu cür söz oyununda paronimlərdən də geniş istifadə olunur. Paronimlərlə oyun mətnə estetik effekt verir.

*Bədəvi ərəblə, bir əldə badə,*
*Verdi bir ömrü badə*
*"Lambada Badam*"! (Əlioğlu, 2015: 152).

***

*dünən axşam*
*bir şer qaraladım*
*ağlamam qaldı*
*səhər durub*
*bir də baxdım*
*gülmək tutdu məni*
*ağlamam qaldı*. (Əlioğlu, 2015: 152).

**Sonuç**

Çingiz Əlioğlunun minimalist şeirləri yeni düşüncə tərzi ortaya qoyur. O, az sözlə İnsan konsepsiyasını, həyat kredosunu poetikləşdirən etüdlər cızır. Şairin poetik mətnlərində poetik tamlıq, avaz və vurğu bütövlüyü, deyim ekspressiyası və poetik-fəlsəfi məna həmişəyaşardır. Çingiz Əlioğlunun avanqard poeziyası bu günün mənzərələrini özündə görükdürərək öz aktuallığını daimi qoruyub saxlayan poetik nümunələrdir.

**KAYNAKÇA**

Əlioğlu Ç. (2003). Ruhumun həndəsəsi. Bakı, Qapp-Poliqraf.
Əlioğlu Ç. (2004). Avand. Bakı, Vektor.
Əlioğlu Ç. (2006). Fraqmentlər (esselər, müsahibələr, düşüncələr). Bakı, Çinar-Çap.
Əlioğlu Ç. Çərçivə. (2010). Bakı, Təhsil.
Əlioğlu Ç. Qonşunun iti. (2015). Bakı, Mütərcim, AYB.
Əlişanoğlu T. (2024). https://edebiyyat.az/edebi-tenqid/2231-tenhran-elsanoglu-muasir-azerbaycan-edebiyyati-ocerkleri-rasim-qaracanin-avanqardistikasi.html
Vahid M. Ədəbi "Kəpənək effekti". (2020). Bakı, Elm və təhsil.
Vahid M. Tamamlanmamış fikrin poetikası. (2019). Ədəbiyyat qəzeti, 22 iyun.
Nurgül. Minimalist şeir necə yazılır. / https://kaspi.az/az/minimalist-seir-nece-yazilir?
Mineralov Y.İ. Poeziyada minimalizm / https://kaspi.az/az/yuriy-ivanovi-mineralov-poeziyada-minimalizm.